


«Moskvada Moskvareçiy» bazarına OMON-nun reydi təsadüfi deyil.»

Belə reydlər Moskvanın bütün bazarlarında aparılacaq».

Belə reydlərə səbəbə bazarlarda çalışan və dövlətə heç bir rüsum ödəməyən miqrantları aşkar etməkdir. «Bir qədər əvvəl Rusiya Miqrasiya komitəsi məlumat yaymışdı ki, ölkədə 3 milyondan çox qeyri-qanuni miqrant fəaliyyət göstərir. Onların qeydiyyatı olmadığı üçün rəsmi nəzarət etmək mümkün deyil. Bu çoxmilyonlu miqrantların arasında isə azərbaycanlılar da üstünlük təşkil edir».

Həmsöhbətimizin dediyinə görə, bundan başqa ilin axırına kimi Moskvada bağlanacaq bazarların da siyahısı məlumdur. Artıq bu bazarlarda işləyən azərbaycanlılar özlərinə yeni iş yerləri axtarmağa başlayıblar.

Teyyub Həsənov həmin bazarların siyahısını da bizə təqdim edib. Bunlar «Kolomenskaya yarmarka», «Konkovo», «Lefortovski», «Mariino», «Tyoplıy stan», «Vlokolomsk», «Arkada», «Afqanets», «Yarmarka Lyublino», «Tekstilşiki», «Vıxino», Persvet, «Timiryazevski», «Petrovski-Razumovski», «Tuşinski» və «Rijski» bazarlarıdır.

Həmsöhbətimizin dediyinə görə, bu bazarlarda minlərlə azərbaycanlı çalışır.